TURAN-SAM * YIL: 2011 * CİLT: 3 * SAYI: 11 * YAZ 2011
TURAN STRATEJİK ARAŞTIRMALAR MERKEZİ DERGİSİ
www.turansam.org

# (15)
# AZƏRBAYCANIN TƏHLÜKƏSIZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ NEFT AMİLİNİN ROLU

**Turan MƏMMƏDOV**

Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə Sosiologiya və Hüquq İnstitutunun aspirantı

Enerji təhlükəsizliyi məsələsi son on ildə bir çox dövlətlərin xarici siyasətlərində xüsusi yer tutmağa başlamışdır. İstər enerji istehsalçıları, istərsə də istehlakçılar enerji təhlükəsizliyini təmin etməyə çalışırlar. Belə ki, enerji istehsalçıları öz ölkələrində istehsal etdikləri enerji resurslarını alternativ yollarla dünya bazarlarına çatdırmağa, öz növbəsində enerji istehlak edən ölkələr isə bu resursları öz bazarlarına alternativ yollarla nəql etməyə çalışırlar. Göründüyü kimi, müasir dünyada enerji resurslarının nəqliyyatının şaxələndirilməsi əsas məsələyə çevrilmişdır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin hesabatına görə,bu ölkənin xarici və təhlükəsizlik siyasətinin əsas geosiyasi təyinedici amilləri aşağıdakı kimi müəyyən edilə bilər ;[1]

1.Dağlıq Qarabağ münaqişəsi

2.Azərbaycanın enerji resursları

3. Avropa ilə əlaqə və Avro-Atlantik strukturlara daha da geniş inteqrasiya etmək üçün güclü istək

4. İslami irs türk ölkələri ilə mədəni yaxinliq və çoxtərəfli təsisatlarda yaxınlıq

Azəraycan Respublikasının milli təhlükəsizliyinin və o cümlədən enerji təhlükəsizliyinin təmin edilməsinin fundamental əsasları Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında əks olunmuşdur. Bu konsepsiyanın enerji təhlükəsizliyi ilə bağlı hissəsində deyilir:

"Enerji təhlükəsizliyi siyasəti Xəzər hövzəsinin Azərbaycan Respublikasına mənsub olan sektorunda yerləşən mövcud neft və qaz yataqlarının, habelə perspektivli strukturların işlənməsi, istismarı, müasir neft-qaz özüllərinin tikintisi və quraşdırılması, əsas neft və qaz ixrac boru kəmərlərinə, terminallarına olan təhdidlərin aşkar edilməsi, qiymətləndirilməsi və adekvat tədbirlərin görülməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsinin ən mühüm fəaliyyət istiqamətlərindən biridir".[2]

Bunları nəzərə alaraq qeyd etmək olar ki, Azərbaycan nefti ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında mühüm faktorlardan birinə çevrilmişdır. Neftin milli təhlükəsizliyimizdə oynadığı rolu aşağdakı kimi təsnifatlaşdırmaq olar:

1. Neft faktoru Azərbaycanın iqtisadi təhlükəsizliyinin qorunması üçün təsiredici mexanizmə çevrilməkdədir.

2. Neft faktoru Azərbaycanın geopolitik maraqlarının müdafiəsinə yönəlmışdır.

3. Neft faktoru Azərbaycanın enerji təhlükəsizliyinin ayrılmaz komponent lərindən biridir.

4. Neft faktoru Azərbaycanın beynəlxalq arenada pozitiv imicinin formalaşmasına real zəmin yaratmışdır.

5. Neft faktoru ölkənin hərbi təhlükəsizliyinə beynəlxalq qarantiyanın formalaşmasına birbaşa təsir göstərir. [3]

Xatırladım ki, bütün bu müddəalar İlham Əliyevin neft amili ilə bağlı yürütdüyü diplomatik siyasətin ümumiləşdirilmiş nəticələridir.

Eyni zamanda qeyd etmək olar ki Azərbaycanın atdığı qətiyyətli addımlar regionun və dünyanın enerji təhlükəsizliyini təmin edib, çoxşaxəli enerji marşrutları sisteminin yaradılmasına əlverişli zəmin yaradıb. Azərbaycan hökuməti nümayiş etdirdiyi siyasi iradə ilə trans-enerji layihələrinin çəkilişinə səbəb olub, Avro-Asiya Neft Nəqli Dəhlizi sisteminin yaradılmasını reallaşdırıb. Dünya dövlətlərinin yanacaq təminatında mühüm rol oynayan Azərbaycanın Xəzər-Qara-Baltik-Aralıq dənizləri dəhlizinin yaradılması istiqamətində intensiv addımlar atması isə dünyanın enerji xəritəsinin zənginləşməsinə səbəb olur.

Enerji qaynaqlarının xarici neft şirkətlərinin istifadəsinə açıldığı gündən etibarən Azərbaycan beynəlxalq siyasətin və iqtisadiyyatın bir yerdə toqquşduğu bir ölkə olmuşdur. Daxili sabitliksizlikdən etnik separatçılığa, siyasi qiyamlardan torpaqlarının işğal olunmasına qlobal rəqabətin gətirdiyi xarici siyasət istiqamətini təyin etmə çətinliyindən təkrar bir müstəmləkə olma təhlükəsinə qədər hər cür mənfilikdə sahib olduğu enerji qaynaqlarının inkar edilməz təsiri olmuşdur. Azərbaycan həm Əbülfəz Elçibəy dövründə həm də Heydər Əliyev dövründə enerji sərmayələrini və boru xəttləri yollarını ölkənin daxili və xarici siyasətinə istiqamətli xarici təzyiqləri qırmaq, iqtisadi, siyasi və təhlükəsizlik mövzusunda ölkənin müstəqilliyiniın gücləndirmək üçün istifadə edilmışdır. Bu mövzuda imzalanan neft müqavilələrində enerji şirkətlərinin aldığı paylara və boru xəttlərinin yollarına baxıldığı zaman əslində Azərbaycanın xarici siyasətdə nə etmək istədiyi görünməkdədir. Azərbaycanın Qərb istiqamətli xarici siyasəti əvvəl Xalq Cəbhəsinin Bəyannaməsində daha sonra Heydər Əliyevin Qərb şirkətlərilə imzaladığı "Əsrin Müqaviləsində" özünü göstərdi. Heydər Əliyev dövründə bu strategiyanın daha uğurlu olduğu deyilə bilər. Neft müqavilələrində ABŞ və Avropa dövlətləri qədər, Rusiya və İranın mənfəətləri göz qarşısında saxlanılaraq neft müqavilələrində onların da neft şirkətləri yer almış və regional tarazlıq gözlənilmışdır. Regional dövlətlərin mənfəətlərinin güdülməsi Azərbaycan xarici siyasətində tarazlığın qurulması baxımından əhəmiyyətli rol oynamışdır. Boru xəttlərinin yolları mövzusunda iqtisadi məhsuldarlıq deyil geosiyasi mübarizənin vacibliyi və siyasi təhlükəsizliyi olan yollar seçim edilmişdır. Azərbaycan neftini dünya bazarına daşıyacaq boru xəttləri ölkənin iqtisadi olduğu qədər siyasi təhlükəsizliyi üçün də əhəmiyyətli olmasından qaynağlanmışdır. Boru xəttləri və enerji sərmayələri Azərbaycanın Tehran-Yerevan- Moskva təhdidinin kilid nöqtəsi olan Ermənistanın regional proyektlərin xaricində qalaraq xəttin qırılmasına səbəb olacaq. Xəttin qırılması səbəbindən regional tarazlıqların fərqli istiqamətdə inkişafına səbəb olmaqdadır. Enerji proyektləri Azərbaycan-GürcüstanTürkiyə geosiyasi üçbucağının inkişafında, Azərbaycanın GUAM daxiliində nüfuzunun artmasında, Azərbaycan-İsrail, Azərbaycan-ABŞ əlaqələrinin inkişafında əhəmiyyətli rolu olmuşdur. Azərbaycanın bu ölkələrlə əlaqələrinin inkişafı regional təhdiddən xilas olması baxımından əhəmiyyətli rol oynamaqdadır. Bəzi dəyərləndirmələrə görə Azərbaycan Tehran-Yerevan-Moskva təhdidini qırmaq üçün İsraillə əlaqələrine əhəmiyyət verməkdədir. BTC və BTƏ ilə İsrail də yaxından maraqlanmaqda və bu mövzuda Azərbaycan və Türkiyə hökumətləri ilə işbirliyindədir.

Qloballaşma şəraitində Azəraycanın təhlükəsizliyinə real təhlükə törədən Moskva-Yerevan –Tehran üçlüyünə qarşı Azərbaycan öz təhlükəsizliyini və mənafelərinin qorumaq üçün Qərbə NATO-ya inteqrasiyanı üstün tutur.

Azərbaycanın ictimai-siyasi həyatında NATO-Azərbaycan əlaqələrinin zəruriliyinə əsas kimi göstərilən arqumentləri belə qruplaşdırmaq mümkündür:

1) Bu əlaqələr Azərbaycanın gələcəkdə təhlükəsizliyinə tam əminlik yaradır;

2) Azərbaycan üçün həllini gözləyən vacib problemin-Dağlıq Qarabağ probleminin həlli reallaşacaq;

3) Neft hasilatının və ixracatının təhlükəsizliyi təmin ediləcək;

4) Xəzərin statusunun həlli başa çatdırılacaq;

5) Azərbaycan ordusu NATO standartlarına uyğun olaraq formalaşacaq. [4]

NATO-Azərbaycan münasibətlərini tədqiq edənlərin və siyasi ekspertlərin əksəriyyəti NATO-nun Şərqə genişlənməsinə haqq qazandıraraq, belə genişlənmənin məhz təhlükəsizlik üçün vacib olduğunu arqument kimi irəli sürürlər. Lakin belə təhlükəsizliyin mahiyyəti və ya hansı tərəfin təhlükəsizliyinin nəzərdə tutulduğu adətən qabardılmır. NATO-nun son 15 ildəki hərbi əməliyyatlarının mahiyyəti göstərir ki, belə əməkdaşlıq heç də yerli əhalinin təhlükəsizliyinin qorunması məqsədilə həyata keçirilmir. NATO-nun Balkan yarımadasında və Əfqanıstandakı hərbi əməliyyatları da bu regionda ABŞ-ın gələcəyə yönəlmiş maraqlarından xəbər verir. Qərb imperializminin təcavüzkar siyasətinə müqavimət göstərə biləcək ölkələrin parçalanması və ya məhv edilməsi NATO-nun genişlənməsinin gizli məqsədlərindəndir.

Azərbaycanın həllini gözləyən digər vacib problemi Dağlıq Qarabağdır. Azərbaycanın NATO-ya inteqrasiyasını təbliğ edən siyasilərin və politoloqların əksəriyyəti Azərbaycanın NATO-ya qoşulacağı təqdirdə bu problemin həllinin mümkünlüyünü dolayısı ilə qeyd edirlər. Lakin NATO-nun mahiyyətini diqqətlə öyrəndikdə və bu qurumun Şərqə genişlənməsinin, Qafqazdakı fəaliyyətinin əsas məqsədlərini araşdırdıqda məlum olur ki, Azərbaycanın NATO-ya qoşulması Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini nəinki mümkün etmir, əksinə, bu problemin uzun müddət üçün "dondurulmasını" stimullaşdırır. Belə ki, əgər Azərbaycan və Ermənistan NATO ilə əməkdaşlıq edəcəksə, NATO bu ölkələrin bir-biri ilə münasibətlərinə qətiyyən qarışmayacaq və Dağlıq Qarabağ probleminin "dinc yolla həllinin axtarılması" bəhanəsi ilə "dondurulması"nı daha məqsədəuyğun hesab edəcək.

Azərbaycanın NATO-ya inteqrasiyasını təbliğ edən siyasilərin və politoloqların əksəriyyəti düşünür ki, Azərbaycan NATO ilə əməkdaşlığını genişləndirərsə, Ermənistan isə NATO-nu öz ərazisinə yaxın buraxmayacaqsa, bu halda da NATO Azərbaycan tərəfində dayanaraq Dağlıq Qarabağ probleminin həllinin hərb variantını dəstəkləyəcək. Əksinə, ABŞ və digər Qərb ölkələrinin regiondakı maraqları bunu deməyə əsas verir ki, Dağlıq Qarabağ probleminin həlli üçün hərb variantı seçildiyi halda NATO tərəfindən Azərbaycana təzyiqlər ciddi sürətdə artacaq. Çünki NATO-nun Qafqazdakı missiyası Dağlıq Qarabağın erməni separatçılarından və ya Ermənistan qoşunlarından azad edilməsi deyil, ABŞ-ın və NATO üzvü olan Avropa ölkələrinin təhlükəsizliyinin, o cümlədən enerji təhlükəsizliyinin təmin edilməsidir. Bu "təhlükəsizlik kəmərinin" Qafqazdan keçən hissəsi isə "Əsrin Müqaviləsi", BTC və BTƏ layihələri ilə bağlıdır. Odur ki, hər iki halda NATO yalnız bu missiyanı həyata keçirəcəkdir.

Nəzərə alsaq ki, Azərbaycan enerji təhlükəsizliyinin təmin edilməsi məsələsində Avropanın əsas tərəfdaş ölkələrindən biridir, bu halda ölkəmiz tranzit azadlığı, ayrı-seçkiliyin olmaması prinsiplərinə əsaslanan tarazlaşdırılmış və kommersiya əsasında tariflərin müəyyənləşdirilməsi məqsədilə Xəzər regionunun digər ölkələrindən Avropaya enerji daşıyıcılarının öz ərazisi ilə maneəsiz tranziti üçün lazımi şərait yaratmağa hazırdır. Biz hesab edirik ki, Mərkəzi Asiyada maraqlı ölkələrin milli şirkətləri ilə birgə bu cür layihələrin həyata keçirilməsi üçün ciddi hüquqi, texniki və ya digər maneələr yoxdur.

İşğal olunmuş torpaqların azad edilməsində Azərbaycan nefti üç istiqamətdə istifadə etməyə çalışmışdır.

1. Xarici tarazlığı öz lehinə dəyişdirmə vasitəsi olaraq Qərbə açılaraq imic yeniləmə və Fransa kimi Erməni istiqaməti dövlətləri neytrallaşdırma. 1988-ci ildə müharibəsi başlamadan Ermənilər təbliğat vasitəsiylə müharibəni qazanmışdılar.Xaricdə olan güclü Erməni lobbisinin yürütdüyü lobbi fəaliyyətləri nəticəsində ABŞ və Avropada Azərbaycan yanlış tanıdılmış və hətta ABŞ Azərbaycana iqtisadi və humanitar köməkləri qadağan edən 907 ci Düzəlişi qəbul etmışdır. Başqa sözlə Azərbaycanın ilk yandan özünü haqlı çıxarmaq və imic yeniləmək üçün mübarizə etmışdır. Neft şirkətləri ilə imzalanan neft müqavilələri Azərbaycanın enerji qaynaqlarının yanında ölkənin qarşılaşdığı işğal probleminin də dünya mətbuatında iştirak etməsinə səbəb olmuşdur. Bu müddətin sonunda Azərbaycanın Erməni lobbisi və Erməni sempatizanlarının təbliğat təhdidini qırmağı bacardığı deyilə bilər.

2. Çəkiliş mərkəzi olaraq. Bakıdakı böyük enerji şirkətləri onu bölgənin enerji və sərmayə mərkəzinə, döndərəbilər. Bu eyni zamanda Azərbaycanı, Dağlıq Qarabağda yaşayan Azərbaycan vətəndaşları olan ermənilər üçün cəlbedici edə bilər. Azərbaycanın razılıq verdiyi mərhələli planının sonunda səs vermə zamanı Ermənilərin iqtisadi olaraq daha yaxşı fürsətlər təqdim edən Azərbaycanı, iqtisadiyyatı inkişaf etmiş, həyat səviyyəsi aşağı və regional proseslərdən təcrid olan Ermənistandan üstün tutmasına səbəb olardı.

Təzyiq vasitəsi olaraq.

A. Ermənistanı regional enerji inteqrasiyalarının xaricinə çıxararaq iqtisadi çətinliyə salmaq yoluyla müqaviləyə məcbur etmək.

B. Hərbi gücünü artıraraq diplomatik görüşlərdə gücünü artırmağı hədəfləmişdir. Neftdən gələn qazancla hərbi büdcəsini və texnoloji gücünü artıraraq birbaşa olaraq

Ermənistana təzyiq etməyi hədəfləmişdir. [5] Aparılan rəy sorğuları da neft strategiyası çərçivəsində Azərbaycanın böyük üstünlük qazanacağına ümüd ifadə edilməkdədir.Siz nece hesab edirsiniz Azərbaycanın neft strategiyası Qarabağ münaqişəsinin tənzimlənməsinə təsir edəckmi?[6]




Azərbaycan əsrin müqaviləsini və digər müqavilələri imzalarkən Azərbaycanın neft gəlirlərinin artdığı nisbətdə hərbi büdcəsinin də artacağı və bunun da bölgədəki qüvvələr tarazlığının dəyişməsinə səbəb olacağ barədə şərhlər verilmişdir. Necə ki Azərbaycanın neft gəlirləri artdığı nisbətdə hərbi büdcəsinin də artdığını görməkdəyik.Problemin hərbi yöndən həll edilməsi İlham Əliyev dövründə daha tez-tez dilə getirilmışdır. Lakin bəzi şərhçilərə görə Azərbaycanın hərbi yöndən problemi həll etməsi hələlik ehtimal xaricindədır. Bu da Rusiyanın Ermənistana etdiyi hərbi köməklərdən və Rusiyanın Ermənistanda olan hərbi əsaslardan qaynaqlanmaqdadır. Bir-birinin ardınca imzalanan müqavilələr dünya ölkələrinin bölgədə sabitliyin qorunması baxımından Azərbaycana olan marağı artırdı. Lakin bunlar Qarabağ məsələsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi üçün zəruri olan güc tarazlığında köklü dəyişimə səbəb olmadı. Bu dünya dövlətlərini Azərbaycanın ərazi bütövlüyüylə deyil enerji qaynaqları ilə yaxından maraqlandıqlarının göstəricisidir. Hətta enerjidən gələn qazanclar ölkənin hərbi və iqtisadi yönündə inkişafını kömək etsədə enerji mənfəətləri olan ölkələr bölgədə sabitliyin qorunmasını istəməkdədir. Yəni Azərbaycanın işğal olunmuş torpaqlarını müharibə yoluyla geri alınmasına qarşı çıxmaqdadır. Bu baxımdan baxdığımız zaman isə enerji sərmayələrinin Azərbaycanın torpaq bütövlüyünün qorunması istiqamətində bir maneə olduğunu deyilə bilər.[7]

**Azəraycanın təhlükəsizliyinin təmin edilməsində neft amilinin rolu.**

Məqalədə Azərbaycanın milli təhlükəsizliyinin əsas məqamları, milli təhlükəsizliyə təsir edən amillər və bu amillər içərisində əsas komponentlərindən olan nefin yeri və rolu araşdırılır. Müəllif milli təhlükəsizliyin təmin edilməsində və xarici siyasətin həyata keçirilməsində neftin bir faktor kimi istifadə edilməsi yollarını təhlil edir. O cümlədən dövlətin enerji təhlükəsizliyinin təminatı strategiyasında neft amilinin əhəmiyyəti göstərilir. Bundan başqa Qarabağ münaqişəsinin həll edilməsi proseslərində neftin siyasi təsir imkanları arşdırılır.

**Role of oil factor in insurance of security of Azerbaijan**

The article deals with the fundamental points of the security of Azerbaijan, factors affecting the national security and place and role of oil which is considered one of the main components among these factors. The author analyses ways of use of oil factor in insurance of national security and implementation of foreign policy. Effiectiveness of oil in assurance strategy of energy safety of the state is shown in the article as well. Likewise potentials of political influence of oil in settlement of Nagorno Karabakh conflict are analysed.

Qaynaqlar;

1. mfa.gov.az
2. Azərbaycan Respublikasının Mili Təhlükəsizlik Konsepsiyası
3. Azərbaycan nefti dünya siyasətində: 5 cilddə:.- İ.Əliyev və b.- B.: Azərbaycan, 1997.- C.1.-87 s.
4. Geostrategiya ictimai siyasi jurnal 03 fevral 2011
5.Region Plus jurnalı Analitik baxış N 8.Bakı 2006,s36
6.Rəy Monitorinq Mərkəzi iyun 2006
7.Bakı-Tbilisi-Ceyhan neft kəmərinin beynəlxalq və regional əhəmiyyəti. Beynəlxalq konfrans: Tezislər Bakı 2007